# Müdrik deyimlər

eBəşəriyyətə əsil məhəbbət olmadan, vətənə də əsil məhəbbət ola bilməz.

**A. Frans.**

eƏbədi xoşbəxt olmaq istəyən kəs ömrünü xalqa həsr edər.

**H. Təbrizi.**

eTamah zəncirini ancaq ağıl qıra bilər.

**Xeqani.**

eMəğlubiyyət elə bir məktəbdir ki, burada həmişə həqiqət daha güclü olur.

**Biçer.**

eKitab həyatın ən uzaq və qaranlıq yollarında insana işıq bəxş edən əfsanəvi çıraqdır.

**A. M. Upit.**

eİnsanı tanımaq üçün böyük həyat təcrubəsinə malik olmaq lazımdır.

**Feoqnit.**

eSavadlı axmaq savadsız axmaqdan daha axmaqdır.

**C. B. Molyer.**

eSöz böyük qüvvədir. Ona görə böyükdür ki, sözlə insanları birləşdirmək də olur, ayırmaq da; sözlə məhəbbət də qazanmaq olur, ədavət və düşmənçilik də.

eFikirlərimizin ən yaxşı güzgüsü həyatımızın gedişidir.

**Montagene.**

eSevgi ilə bulanıq, təmiz olmayan sular şəffaf hala gəlir.

**Mövlana.**

eXalq—«sabah olsaydı, bir iş görərdin»—deyir! Bilmir ki, bu gün dünənki günün sabahıdır. Bu gün nə eyləyib ki, sabah da nə eləsin.

**Şeyx Məhəmməd Parisa.**

eAz bildiyini başa düşmək üçün çoxlu oxumaq lazımdır.

**M. Monten.**

***Topladı: N. ATAKİŞİYEV.***

# Torpaq vergisinə edilmiş dəyişikliklər barədə

Torpaq vergisi üzrə Vergi Məcəlləsinin 206.3-cü maddəsinə dəyişiklik edilmişdir. Bu maddəyə əsasən aşağıdakı cədvəldə təyinatları qeyd olunan torpaq sahələrinin hər 100 kvadratmetrinə görə torpaq vergisinin məbləği göstərilən dərəcələr tətbiq olunmaqla hesablanır:

***Misal***

1. Sumqayıt şəhərində yerləşən müəssisənin 1,4 hektar (14000 $m^2$) sənaye üçün istifadə etdiyi torpağı var. Bu halda, müəssisənin torpaq vergisi aşağıdakı kimi hesablanır:
(10000 $m^2$/100 m2) x 8 = 800 manat (10000 $m^2$-ə qədər olan hissə üçün).
4000 $m^2$/100 $m^2$ x 16 = 640 manat (10000 $m^2$- dən yuxarı olan hissə üçün) Cəmi: 800 manat + 640 manat = 1440 manat.

2. Fiziki şəxsin Bakı şəhərində 6 sot həyətyanı sahəsi var. Bu halda torpaq vergisi aşağıdakı kimi hesablanır: (600 $m^2$/100 $m^2$) x 0,6 = 3,6 manat

3. Fiziki şəxsin Lənkəranın Liman şəhərində 20 sot həyətyanı sahəsi var. Bu halda torpaq vergisi aşağıdakı kimi hesablanır: (2000 $m^2$/100 $m^2$) x 0,1 = 2 manat.

4. Müharibə veteranı olan şəxsin Cəlilabad rayonunun Göytəpə şəhərində 12 ha bağ sahəsi var. Bu halda torpaq vergisi torpaq sahəsinin ölçüsündən və vergi güzəşti nəzərə alınmaqla aşağıdakı kimi hesablanır: (10000 $m^2$ /100 $m^2$) x 0,1 manat = 10 manat (10000 $m^2$-ə qədər olan hissə üçün) (2000 $m^2$ /100 $m^2$) x 0,2 manat = 4 manat (10000 $m^2$- dən yuxarı olan hissə üçün) (10 manat + 4 manat) - 10 manat (vergi güzəşti) = 4 manat i s t i s n a olmaqla).

| *Yaşayış məntəqələri* | *Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar (manatla)* | | | *Yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar (manatla)* | | |
|---|---|---|---|---|---|---|
| | *Dəyişiklikdən əvvəl* | *Dəyişiklikdən sonra* | | *Dəyişiklikdən əvvəl* | *Dəyişiklikdən sonra* | |
| | | **10000 $m^2$-dək olduqda** | **10000 $m^2$-dən yuxarı olan hissə üçün** | | **10000 $m^2$-dək olduqda** | **10000 $m^2$-dən yuxarı olan hissə üçün** |
| Bakı | 10 | 10 | 20 | 0,6 | 0,6 | 1,2 |
| Gəncə, Sumqayıt şəhərləri və Abşeron rayonu | 8 | 8 | 16 | 0,5 | 0,5 | 1 |
| Digər şəhərlər (rayon tabeliyində olan şəhərlər istisna olmaqla), rayon mərkəzləri | 4 | 4 | 8 | 0,3 | 0,3 | 0,6 |
| Rayon tabeçiliyində olan şəhərlərdə, qəsəbələrdə və kəndlərdə (Bakı və Sumqayıt şəhərlərinin, habelə Abşeron rayonunun qəsəbə və kəndləri istisna olmaqla | 2 | 2 | 4 | 0,1 | 0,1 | 0,2 |

# TƏBRİK EDİRİK!



**Əziz və sevimli körpəmiz, canımız Səlim!**

**Bir yaşın mübarək! Arzu edirik sağlam böyüyəsən, sənə baxıb fəxr edək, fərəhlənək, toyunu görək. Valideynlərinə, ailənə, elinə, obana sadiq, yararlı bir insan kimi yetişəsən.**

Atan Samir, anan Ramilə, bacıların Ofelya, Ülkər, bibin Samirə, oğlu Rəşad.

# Elanlar

Qəbələ rayon Aqrar İslahat Komissiyası tərəfindən 25 fevral 1999-cu il tarixdə 4 saylı qərarla Nic kənd sakini **Nasibov Mişa Surenoviçin** və ailə üzvlərinin adına verilmiş JN 593 G nömrəli (kodu 40600068) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ rayon Aqrar İslahat Komissiyası tərəfindən 10 iyun 1998-ci il tarixli 11 saylı qərarla Böyük Pirəli kənd sakini **Eyyubov Seyid Eyyub oğlunun** və ailə üzvlərinin adına verilmiş JN-190 F nömrəli, (kodu 40602018) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

---

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 28 oktyabr 1998-ci il tarixli 19 saylı qərarla Vəndam kənd sakini **Şirinov Kazım Əzim oğlunun** və ailə üzvlərinin adına verilmiş JN- 885 F nömrəli kodu 40600048) **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

# Falçı

Bir falçı xəlifə Harunn ər-Rəşidə «bu yaxınlarda öləcəksən»—demişdi. Harun ər-Rəşid eşitdiyindən çox kədərlənmiş, «birdən falçının dediyi düz çıxsa, necə olcaq»?—deyə qorxmağa başlamışdı. Xəlifə bir gün dərdini müdrik vəziri Bərməkiyə danışdı. Bərməki: fala inanmayın, desə də Harun ər-Rəşid sakit ola bilmirdi. Bərməki:—İcazə ver\səniz falçının yalan söylədiyini isbat edə bilərəm, dedi. Harun ər-Rəşid razılaşdı.

Bərməki falçını yanına çağırdı. Sən kimin nə vaxt öləcəyini müəyyən edə bilirsənmi?—deyə soruşdu. Falçı: əlbəttə, dedi.

—Elə isə de görüm, sən özün nə vaxt öləcəksən?

Falçı: Mən hələ çox yaşayacağam, dedi. Bərməki bu cavabı eşidən kimi cəlladı çağırdı və falçının boynunu vurdurdu. Bərməki falçının yerdə yatan cansız bədənini Harun ər-Rəşidə göstərərək dedi:

—Hökmdarım! Əgər bu falçı doğru, danışsaydı heç ölərdimi? Öz ömrünü hesablaya bilməyən başqasının ömrünü necə hesablaya bilər? Deməli, fala baxmaq yalandır.

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Şimal-qərb Regional Mərkəzinin əməkdaşları iş yoldaşları **Orxan Mahmudova,** əmisi

**MÜBARİZ MAHMUDOVUN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Tofiq Allahverdiyev **İnqilab Mahmudova,** qardaşı

**MÜBARİZ MAHMUDOVUN**

vəfatı ilə əlaqədar başsağlığı verir.

---

«Qəbələ» qəzetinin kollektivi sabiq iş yoldaşları **Dostuxanım Mirzəyevaya,** anası

**GÜLSABAH MİRZƏYEVANIN**

vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi:
Q. C. Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.

Oxucu məktubları geri qaytarılmır.